

Baş redaktor: Şəhla Qəmbərova
Redaktor: Aynur Turan
Korrektor: İlahə Quliyeva
Bədii tərtibat: Aqil Tağıyev

Müəlliflik hüququ F.Köçərli adına Respublika Uşaq Kitabxanasına məxsusdur. Xüsusi icazə olmadan jurnalın surətini, elektron variantını çap etmək və yaymaq qanuna ziddir.

Jurnalın üz qabığındakı foto:
Təmkin, Fərəh, Saraxatun Bayramovlar

web: www.clb.az
facebook: fb.com/childlibazerbaijan
twitter.com/childlibaze
instagram: childlibazerbaijan
youtube: childlibazerbaijan

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası

Jurnalımıza abunə olmaq üçün aşağıdakı ünvana müraciət edə bilərsiniz.
Ünvan: Bakı AZ1022 S.Vurğun küçəsi 88
Tel: (+99412) 5970879,
Faks: (+99412) 5970851.

«Aspoliqraf LTD» nəşriyyat-poliqrafiya müəssisəsinin mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçib.

Qeydiyyat nömrəsi:
№ 3926 – 06.11.2014 2006-cı ilin noyabrından çıxır.

Təşkilati dəstək:
Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Təsisçi: F.Köçərli adına Respublika Uşaq Kitabxanası

UŞAQ VƏ YENİYETMƏLƏR ÜÇÜN JURNAL
№ 01 (81) / 2024



# Göy Qurşağı

Xoş gəlmisən, təzə il!




# QIŞ

*Teymur Elçin*

Saç-saqqalı ağarmış.
Pıçıldadı tez mənə:
– Gör nə gətirdim sənə?

Baxdım, ağarır hər yan,
Çaylar donur şaxtadan.
Yorğan örtüb ağappaq
Yuxuya getdi torpaq.

Qaçıb gizləndi quşlar –
Soyuqdan qorxmuşlar.
Hay saldım uşaqlara:
– Baxın bu yağan qara!
Çıxarın xizəkləri
Təpələrə, dağlara!

Pıçıldadı Qış yenə:
– Görün nə verdim sizə!
Olmasa suyum, qarım,
Nə edəcək dostlarım?
Nə əkəcək onda Yaz,
Nə biçəcək onda Yay,
De, nə yığacaq Payız?
Dəftərinə bunu yaz!
Sizə qar gətirmişəm,
Dövlət, var gətirmişəm.
Yandırın ocaqları,
Qızdırın sobaları!

Vıyıldadı Qış baba,
Oldu bir qarış baba.
Qaçıb gizləndi bizdən,
Qar çıxdı əlimizdən...

# Gözəl Qış

*Xanımana Əlibəyli*

Şaxta baba uzaqdan
Necə gəlib məktəbə
Düşüb əldən-ayaqdan,
Gecə gəlib məktəbə?
Qarlı dağlardan aşıb,
Buzlu çaylardan keçib,
Meşələri dolaşıb,
Bizə bir yolka seçib.
Əsib külək, yağır qar,
O, soyuqdan əsməyib.
Nə pələng, nə canavar
Qarşısını kəsməyib.
Bəzədik o yolkanı:
Asdıq qızıl ulduzu,
Atı, fili, kuklanı,
Tülkünü və xoruzu.
Yolkamız, ay uşaqlar,
Görün nə gözəl oldu!
O yamyaşıl budaqlar
Oyuncaqlarla doldu.
Hər budaqda elə bil
Açdı lalə, qərənfil.
Bu asılan kəpənək
Düz qızılgülə qonub,
Gözəl bəzəkli böcək
Elə biləsən donub
İt boynuna lent taxıb
Pişik eşir bığını,
Tülkü xoruza baxıb
Yellədir quyruğunu.
Bir az o yana itdən,
Qıza bax, nə qəşəngdir...
Paltarı təzə çitdən,
Gülləri rəngbərəngdir.
Qar yağır yavaş-yavaş,
Dovşan qırpır gözünü.
Qara batıb Alabaş,
Silkələyir özünü.
Lap üst budağa qaçıb
Zınqırovlu kəhər at,
Guya ağzını açıb
Kişnəyəcək bu saat.
Bax, evciyin damını
Buz basıb, qar yağırdı,
Şaxta baba hamını
Öz yanına çağırdı.
O verdi bizə bəxşiş,
Bir-bir boşaldı zənbil,
Sən nə gözəlsən, ay qış,
Xoş gəlmisən, təzə il!

# Dörd qardaş

*Rafiq Yusifoğlu*

Yol üstündə dörd qardaş,
Tapdılar dörd karandaş.
Qırmızını yay seçdi,
Yaşıl rəngi yaz aldı.
Ağ rəngi qış götürdü,
Sarı payıza qaldı.

## QAR VƏ UŞAQLAR

*Xanımana Əlibəyli*

*Havada bərk şaxta var,*
*Yağır aram-aram qar.*
*Qar ələndi hər yana –*
*Bağça-bağa, eyvana.*

*Yolları ağ rənglidi,*
*Hər yanı ahənglidi.*
*Aləm oldu ağappaq,*
*Uşaqlarla doldu bağ.*

*Xizəklər işə düşdü,*
*Uşaqlar hey sürüşdü!*
*Heç kimə etmədi kar,*
*Nə o şaxta, nə o qar.*
*Bir ağ papaq geydi şam*
*Qu tükündən o axşam.*

## Üşümürmü, görəsən?

*Bəxtiyar Vahabzadə*

*Göy atlasdan hər bahar*
*Paltar geyir ağacar.*
*Qış gəlincə buz tutub,*
*Torpaq donur, daş donur.*

*Bəs nədəndir ağaclar,*
*Paltarını soyunur?*
*Qar yağanda onların*
*Budaqları ağ olur.*
*Boranda, tufanda da,*
*Ağaclar çılpaq olur!*

*Yel əsir, şaxta kəsir,*
*Mat qalmışam buna mən.*
*Bu şaxtada ağaclar*
*Üşümürmü, görəsən?!*

## TƏZƏ İL

*Mürvət Qədimoğlu*

*Bürünübdü çöl-çəmən*
*Ağappaq, bəyaz qara.*
*Ağ qardan don biçilib*
*Bağçalara, bağlara.*

*Dolanır qapı-qapı,*
*Çiynində də heybəsi.*
*Bizim hər birimizə*
*Heybədə hədiyyəsi.*

*Yenə dolur uşaqla*
*Hər bir həyət, hər qapı.*
*Yenə çıxıb həyətə*
*Oynayırıq qartopu.*

*Arzumdur: Şaxta baba*
*Qar yağdırsın hər dağa,*
*Bizi qonaq çağırsın*
*Gələn il Qarabağa!*

*Çəkilsin üstümüzdən*
*Qara bulud, boz külək.*
*Gələn il təzə ili*
*Şuşada bayram edək!*

## NƏRGİZGÜLÜ

*Mirvarid Dilbazi*

*Qış gəldi, qar ələndi,*
*Torpaq çox qüssələndi.*
*Nərgizgülü dedi: – sən,*
*Ay ana, az qüssələn!*
*Qara, qışa dözərəm,*
*Səni indi bəzərəm.*
*Ləçəklərim ağ, sarı...*
*O deşib, çıxdı qarı.*
*Bağ güllərlə bəzəndi*
*Ağ güllərlə bəzəndi.*

# QAR ŞƏHƏRİ



Bir şəhər vardı, burada adamlar da, heyvanlar da qardan yaranmışdılar. Adamlar səhərdən-axşamacan bir-birinə qonaq gedirdilər. Bir də görürdün ki, qar adamların qar telefonları zəng çalır.

– Xırp, xırp, xırp!

Bəs necə! Bu sənə adi telefon deyil ha, cingildəsin, ya da quş kimi oxusun.

Ağzında qar telefonu deyirsən! O, hökmən belə səslənə bilər: Xırp! Xırp!

– Bəli, – deyə Qargəlin dəstəyi qaldırdı.

– Salam! Sizinlə danışan Qarxanımıdı. Axşama hamınızı qonaq çağırıram. Gələndə Qarbəbəni də gətirməyi unutmayın. Çox zaman yekə qarınqluların hamısı gəlir, yazıq Qarbəbələr evdə çığıra-çığıra qalır. Heç insafınız-zadınız yoxdu.

Qarxanım beləcə üyüdüb tökdü və axırda dedi:

– Əla qarplovu hazırlamışam. Qardan kokteyli də yanında.

– Bəh-bəh, – deyə Qargəlinin ağzı sulandı. Kokteylə buz lülələri qoymağı unutma. Qartortu da olsa, daha bu qonaqlığın heç əvəzi olmaz.

– Bir halda ki, ürəyinizə qartortu düşüb, daha neyləyim, onu da hazırlayaram. Onlar oradan-buradan danışıb xudahafizləşdilər.

Əgər axşam orda olsaydınız görərdiniz ki, bu qonaqlar necə qarşılanır. Əvvəlcə qar karetalarda Qargəlin gəldi. Onun qar şlyapası parıldayır, gümüşü boyunbağısı bərq vururdu. Yanında Qaroğlan durmuşdu. Hər ikisi dümağ yay kostyumunda idi. Qarbəbənin bələyi də ağ idi və ayın işığında parıldayırdı. Sonra qar maşınlarda başqa qonaqlar gəldilər. Təkcə Qarqırmızıpapaq bu qonaqlığa piyada gəlirdi. Onun fikrincə, dünyada açıq havada gəzməkdən başqa ləzzətli heç nə yox idi. Birdən Qarqırmızıpapağın qabağına bir Qarcanavarı çıxdı:

– Hara belə, ay Qarqırmızıpapaq? Yoxsa yenə də nənənin yanına gedirsən, hə? Əlindəki də, yəqin, yeməkdir?!



– Yox, nənəmin yanına getmirəm, – deyə Qarqırmızıpapaq canavarın ağ ağzından çıxan dümağ dilinə bic-bic baxdı. – İndi qonaqlığa gedirəm. Əlimdəki də hədiyyədir. Qarxanımı tanıyırsan? Yenə də qonaqlıq edir. Şəhərimizin adamlarının, demək olar, hamısını evinə dəvət edib. Bir vurçatlasın olacaq ki, gəl görəsən.

– Bəs mən neyləyim, – deyə Qarcanavar dilləndi. – Ac-susuz bu şəhərdə yaşa görüm, necə yaşayırsan?!

– Bilirsən – deyə Qarqırmızıpapaq dedi: – Əgər keçəndəfəki kimi məni udmaq fikrinə düşsən, bəri başdan bir şeyi yadında saxla. Hökmən angina olacaqsan.

– Eh orasını mən də bilirəm, – deyə acığından Qarcanavarın alt dodağı sallandı. Qar yeməkdən az qalıram öləm.

Bu zaman onların yanından bir Qardovşanı qaçdı. Amma Qarcanavarı onu heç qovmadı da. Bu şəhərdə qardovşanı qarcanavarlarından, qartülkülərindən və qarçaqqallarından qətiyyən qorxmurlar. Hətta qarpələnglərini də veclərinə almırlar.

Qarpələngləri hərdən hirslənib deyirlər:

– Bu necə ölkədir belə, dovşanlar da səndən qorxmur?!

Amma onlar nə qədər bağırsalar da xeyri yoxdur. Qar dovşanları onları heç veclərinə də almırlar.

Qarcanavarı baxıb gördü Qırmızıpapaqla danışmağın heç bir xeyri yoxdur. Buna görə də çıxıb getdi işinin dalınca.

Qarxanımın evindəki qonaqlıq isə düz səhərəcən davam etdi. Adamlar yalnız gündoğana yaxın evlərinə dağılışdılar. Onlar danışırdılar ki, ömürlərində belə gözəl qonaqlıq görməmişdilər. Qarxanım, doğrudan da, səxavətli imiş və onunla dostluq etməyinə dəyərmiş.

**Zahid Xəlil**






Sevinc Nuruqızı

# BOZQULAQ "DOST" DÜZƏLDİR

Bu gün Bozqulaq çox kədərli idi. Burnunu pəncərənin şüşəsinə söykəyib həyətə baxırdı. Sobanın üstündə bişən yerkökülərin ləzzətli ətri gəlirdi. Amma bu da Bozqulağı sevindirmirdi:

– İndi mən kiminlə qartopu oynayım?! Köstəbəklər yatıb, ayılar yatıb. Balaca kirpi İpəkcə oyaq olsaydı, onunla oynayardım. Mən indi nə edim?

Bozqulaq iri qar dənələrinə baxdı. Onlar elə şən idilər ki, rəqs edə-edə uçub pəncərənin şüşəsinə qonurdular. Bozqulağın məyus baxışlarını görən ağappaq bir qar dənəsi şüşəni taqqıldatdı:

– Ey, dovşan, biz sənə kömək edərik...

Bozqulaq təəccüblə:

– Siz? Necə?

– Mən və başqa qar dənələri. İndi hamısını çağıraram. Sən şərfini boynuna bağla, çıx bayıra. Gəl, bizdən özünə "dost" düzəlt.

Bozqulaq qulaqlarına inanmadı:

– Qar dənələrindən "dost" düzəldim?

– Hə, "dost" düzəlt. Adını da qoy Qar adam.

Bozqulaq sevindi:

– Ana, şərfimi ver. Gedirəm özümə qardan "dost" düzəltməyə.

Bozqulaq qar dənələrinin arasında ora-bura qaçır, onları yumrulayıb üst-üstə qoyurdu. Bir azdan "Qar dostu" hazır idi:

– Bu da dost. Salam, dost.

Qar adam dilləndi:

– Salam. Çox sağ ol. Məni düzəltdiyin üçün. Mənə bir dənə yerkökü verərsən?

Bozqulaq təəccübləndi:

– Qar adamları da yerkökü yeyirlər?

– Yox. Qar adamlarının burnu yerkökündən olur...

Bozqulaq indi başa düşdü ki, Qar adama burun qoymağı yaddan çıxardıb, tez evə qaçdı. Yekə bir yerkökü gətirib dostuna bağışladı. O, çox xoşbəxt idi.

# Qar dənəsi

*Günel Almaz*

Qar dənəsi darıxırdı. Qərara gəldi ki, bir az uçsun. Uçdu, uçdu... Bir ağacın budağına qondu. Budaqda bir yarpaq qalmışdı, külək bir azdan onu qoparıb torpağa atdı. Qar dənəsi həmin budağa qonub dedi:

– İstəyirsən, sənin yarpağın olum?

Budaq eşitmədi, çünki çoxdan qış yuxusuna getmişdi. Yuxuda yaşıl yarpaqları və çəmənlikləri görürdü. Görürdü ki, zərif meh yarpaqların üstündə yeriyir. Yarpaqlar sevinc içində xışıldayır.

Qar dənəsi gördü ki, budaqdan səs çıxmır, bir budaq da aşağı endi.

– İstəyirsən, sənin çiçəyin olum?

Bu budaq da cavab vermədi. Çünki o yuxarıdakı budağın yuxusunda idi.

Qar dənəsi torpağa endi. Dedi:

– İstəyirsən, sənin çiçəyin olum?

Torpaq razılaşdı, qar dənəsinin üzündən öpdü.

Beləliklə, qar dənəsi bütün qışı orada qaldı. Yaz gələndə onun yerində qarçiçəyi bitdi...





# Qarı qışın dəcəlliklәri

***K.D.Uşinski***

Qarı qış bərk qəzəblənmişdi. O istəyirdi ki, bütün dünyadakı canlıların nəfəsini kəssin. Hamıdan əvvəl o quşlara əl atdı: quşlar öz çığırtı və civiltilərilə onun zəhləsini aparmışdılar.

Qış öz soyuğunu işə saldı. Meşələrin, ağacların yarpaqlarını qoparıb yollara səpələdi. Quşlar sığınmağa yer tapmadılar. Onlar dəstə-dəstə olub, çarə axtarmağa başladılar. Onlar bir yerə yığışıb çığırışdılar və uca dağları, göy dənizləri aşıb isti ölkələrə uçuşurdular. Bircə sərçələr qaldı, onlar da damın altına girib daldalandılar.

Qış gördü ki, quşlara əli çatmayacaq: heyvanların üstünə düşdü. Çöllərə qar yağdırdı, meşələrdə qardan təpə qaladı, ağacların üzərinə buzdan qabıq çəkdi, şaxta dalınca şaxta göndərdi. Şaxtalar bir-birindən güclü gəldi. Küknar ağaclarını bir-birinə vurub şappıltı, gurultu qopardı, heyvanları qorxutmaq istədi. Heyvanlar qorxmadı: kiminin qalın kürkü var idi, kimi dərin yuvalara girib gizləndi, mışovul ağacın kötüyündəki ovuğa girib qoz gəmirməyə başladı. Ayı da mağarasında pəncəsini sordu; balaca dovşan hoppana-hoppana özünü qızdırırdı. Atlar, inəklər, qoyunlar da çoxdan isti tövlələrə çəkilib hazır quru ot gəvələyir, ilıq horradan içirdilər.



Qış daha da acıqlandı, balıqlara əl atdı. Bir-birindən daha şiddətli, dalbadal şaxtalar göndərdi. Şaxtalar yaman bərk gəlib çəkiclərini ucadan tappıldatdılar: mıxsız, mismarsız göllərin, çayların üstündən körpü saldılar. Çaylar, göllər dondu. Amma üzdən buz bağladı. Balıqlar suyun dibinə getdi: buz damın altında onlar daha yaxşı isindilər.

Qış belə düşündü: "Yaxşı, bir dayanın. Adamlara da gücümü göstərərəm". Belə düşünüb bir-birindən daha yaman şaxtalar göndərdi. Şaxtalar pəncərələrin şüşələrinə naxışlar çəkdi, divarları, qapıları elə döyəclədi ki, şalbanlar çatladı. Amma adamlar sobaları qalayıb özlərinə isti fəsəli bişirdilər və qışı lağa qoyub güldülər. Adamlar odun gətirmək üçün meşəyə getməli olduqda, kürk, keçə ayaqqabı və isti əlcəklər geyib baltanı elə bərkdən vurdular ki, onları lap tər basırdı. Elə bil adamlar qışı ələ salırdılar. Yollar yüklü arabalarla dolu idi: atların bədənindən buğ çıxır, sürücülər ayaqlarını yerə döyüb əlcəkli əllərini bir-birinə vurur, çiyinlərini oynadır, şaxtanı tərifləyirdilər.

Qışı ən çox acıqlandıran bu idi ki, balaca uşaqlar da ondan qorxmurdular. Onlar qartopu oynayır, qardan adam qayırır, təpə düzəldir, hələ bir üstünə su da səpib oxuyurdular: "Di gəl, dondur".

Qış acığından bir oğlanın qulağını, o birinin burnunu çimdikləyirdi, elə bərk çimdikləyirdi ki, yeri ağarırdı: oğlan isə, qarı ovuclayıb üzünə çəkir, üzü sanki od tutub yanırdı.

Qış gördü ki, heç nəyə gücü çatmır: acığından ağlamağa başladı. Damların qırağından qışın göz yaşları damcılayıb töküldü... Görünür ki, yaz gəlirdi.



# Будильник Деда Мороза

В далекой Северной Стране живет старый добрый волшебник — Дед Мороз. У него очень важная работа: дарить детям Праздник. В новогоднюю ночь он облетает всю Землю и под каждой елочкой оставляет чудесные подарки для детей. Чтобы набраться сил, Дед Мороз спит до самой зимы. А когда приходит время готовиться к празднику, просыпается от звона своего волшебного будильника. Так происходит каждый год.




Но однажды случилась беда: будильник Деда Мороза сломался! Новый год был уже совсем близко, но будильник так и не зазвенел. Обеспокоенная Снегурочка изо всех сил старалась разбудить старого волшебника: дергала его за руку, трясла над ухом самым звонким колокольчиком и даже натирала ему щеки холодным снегом. Но ничего не помогало! Дед Мороз только зевал, поворачивался на другой бок и сладко похрапывал.

Грустные эльфы разбирали огромные мешки с непрочитанными письмами Деду Морозу и громко вздыхали, покачивая головками. Время шло, волшебник все спал, а они ничего не могли сделать. И только самый маленький эльф не унывал.

— Должен же быть какой-то выход! Ну же, не отчаивайтесь! Нельзя оставить без праздника всех детей Земли! Снегурочка ласково погладила маленького эльфа по рыжим волосам и тихо сказала:

— К сожалению, мы не можем все исправить. Дед Мороз спит очень крепко, и разбудить его может только волшебный будильник или звонкие детские голоса. Но мы живем так далеко от людей, что даже быстрый ветер не доносит сюда эха. Мне очень жаль, маленький эльф… – Снегурочка всхлипнула и вытерла слезы, она была очень расстроена. Эльф на секунду задумался, и вдруг его лицо озарила улыбка. Он вскочил с места, расправил тонкие крылышки и взлетел под потолок.

— У меня есть идея! — радостно воскликнул маленький эльф. — Я знаю, что делать!– Остальные эльфы удивленно захлопали ресницами. Они не знали, что задумал малыш, но в их глазах засверкали искорки надежды. Маленький эльф спустился к ним, все остальные собрались вокруг него. Он что-то шептал, размахивал руками, и эльфы радостно кивали головками. Идея малыша им очень понравилась, и они решили сразу взяться за дело. Успокоив Снегурочку, эльфы один за другим вылетели из домика. Каждый из них держал в руках маленький сундучок, который есть у каждого эльфа. Обычно в них хранят разные сокровища. Но на этот раз все сундучки были пусты. Эльфы поднялись над крышей домика и полетели в сторону ближайшего города. Колючий снег летел им в лица, холодный ветер трепал тонкие крылышки. Но храбрые эльфы не сдавались! Они неслись изо всех сил, кутаясь в свои кафтанчики и крепко прижимая к груди сундучки. Вскоре они добрались до города. До Нового года оставалось совсем немного, и утренники в детских садах и школах были в самом разгаре. Целый день они носились по улицам, прислушиваясь к звукам города. Они незаметно залетали в открытые форточки нарядных актовых залов. И тихонько прятались среди еловых ветвей, ярких игрушек и мерцающих гирлянд. Дети хором звали Деда Мороза, рассказывали стихи, пели песни и весело смеялись. А эльфы открывали свои волшебные сундучки, собирали эхо звонких детских голосов и спешили дальше. Когда все сундучки были полны, эльфы отправились в обратный путь. Снегурочка ждала их дома. Вскоре дружная стайка эльфов влетела в дом. Они неслись над землей всю ночь и очень устали, но были ужасно горды собой! Эльфы расставили свои сундучки вокруг кровати спящего Деда Мороза. Он что-то бормотал во сне и сладко посапывал, даже не подозревая, что новогодний праздник оказался под угрозой. Дрожа от нетерпения, эльфы открыли свои волшебные сундучки. И в ту же секунду комната заполнилась звонкими детскими голосами! Из сундучков посыпались стихи и песни, радостные возгласы и задорный смех. Дед Мороз улыбнулся сквозь сон, заворочался, приоткрыл глаза и… вскочил с кровати!

— Что происходит? — спросил старый волшебник, удивленно озираясь вокруг.

— Ура! Ура! — закричали радостные эльфы. — Получилось! Он проснулся! – Снегурочка звонко смеялась, глядя на их забавные личики. Она была очень счастлива. Когда веселье поутихло, Снегурочка рассказала Деду Морозу всю историю. А потом они принялись за дело. До новогодней ночи оставалось совсем мало времени, а сделать нужно было еще так много! Через три дня наступил Новый год. Старый добрый волшебник Дед Мороз, как обычно, посетил все дома, где его ждали. И под каждой елочкой оставил свой чудесный подарок. А волшебный будильник он, конечно, починил. И принес домой целый мешок эха детских голосов, собранных по всей Земле.

# Tale of a little man and books




There lived a little man and books. Once a little man visited a bookstore, and looked with surprise at the shelves with books. The countless books on the long and crowded shelves interested him greatly. He was glad to see picture books, colorful, on any subject, in many languages. "I wonder which book will be more interesting, which is more surprising? Which book should I read first?" -he thought.

He was moving along the rows, looking through the bookshelves, when suddenly he heard knocking. Looking around, he saw no one – there were only books around. All of a sudden, all the books around started talking.

The geography textbook said, "I know a lot about the Earth. If you read me, you will know the world, I will tell you about countries, rivers, lakes, seas, oceans."

The literature textbook said quietly, romantically: "I am sweeter than everyone else, I am sensitive, joy and sadness, good and evil are reunited in me. If you read me, your life will be painted in iridescent colors. I will make you a guest of other worlds with my magic words, you will learn a lot, you wil achieve perfection. I will expresss your feelings and dreams with beautiful words."

The chemistry textbook said: "If you read me, you will learn about living and non-living beings, individual substances and their mixtures. You will understand the elements, the structure of crystals, the properties of substances and transformations. If you want to know all this, you must read me."



The textbook on the world around us – nature spoke either loudly, like a stormy waterfall, then quietly, but effectively: "I tell you about nature – about mountains, trees, forests, flowers, earth revival, clouds, rivers, bubbling springs. The more you read me, the more you love nature."

The mathematics books Algebra and Geometry joined this discussion: "If you read us, you will recognize numbers and be able to count. We will show you numbers, straight lines, angles. Know that mathematics is considered the crowning achievement of all subjects."

The drawing book said, "With my help, you can replace the ugliness of life with its beauty. Colors will become more familiar to you, your taste will improve, you will be satisfied with landscapes and images. You can imagine what you see and what you do not see, that is, what is not really there, and bring it to life on paper.

A zoology textbook with images of small animals loudly said: "I am a guide to the animal world. I know their position and character. It means the mysterious world, and I can introduce you to this world."

A biology textbook also joined the conversation: "I'm talking about life on earth, about the smallest organisms that cannot be seen with the naked eye. Plants exist all over the world and if your read me you'll achieve deep knowledge about them."

The little man approached the book, which silently stood on the shelf. It differed from all books in its silence. "Why don't you say anything?" – the Little Man asked.

This book spoke with a distinctly different voice: "My secrets and beauty lie within me. There is no need to talk about them. If you want to know these secrets and see the beauties, open and scroll through me yourself."

The little man quickly took the book and began to leaf through it. Universe! World! Planets! Space objects. Their wonderfull performance!

The man really liked this book. This book brought great innovations into his life. He seemed to be born again, or awakened from a long sleep. He felt that this book would greatly help him in building his future.

Flying through the sky, passing through the clouds, looking at the stars, the moon, the sun in the sky and watching their movements pass through his heart... He decides to become a pilot when he grows up to fulfill his dreams. In order to achieving it, it is important to read tirelessly, work hard, be both healthy and knowledgeable...

Years passed, the little man grew up. In order to realize his dream, he tirelessly read, worked, acquired knowledge and the necessary habits. Finally, he achieved what he dreamed of and realized his goal – he became a pilot and began to fly in the sky. He often reads new books and also reviews the previous ones. Each new book becomes for him the key to new successes.

**Author: Afsana Rahimli**



**Gəlin birgə oxuyaq**

# Yeni kitablar bizim rəfimizdə




Bəhram şah mahir ovçu idi və hər ovdan sonra öz şücaəti ilə öyünərdi. Şahın Fitnə adlı gözəl bir kənizi (qulluqçu) vardı. Bu kəniz heç vaxt Bəhram şahın ovçuluq məharətini tərifləməzdi.




Kitabda Azərbaycanın dilbər guşəsi Şuşanın coğrafi mövqelərindən, “Şuşa” adının etimologiyası, müxtəlif adda məhəllə və bölgələri çay, bulaq və su hövzələrindən bəhs edilir.




Kitab balaca dovşan və sevimli quşcuğazın dostluğundan və onların maraqlı sərgüzəştlərindən bəhs edir. Bu sərgüzəştlər hər bir balaca oxucuya əyləncəli mütaliə olacaq.




Сказка перенесёт читателей в волшебный мир и подарит настоящее зимнее настроение. Повести о храброй девочке Герде и застенчивом мальчике Кае познакомит ребёнка с такими понятиями, как добро и зло, любовь и преданность. Книга станет отличным подарком на Новый год.




Bu nağıl sevgini, dostluğu və vətəni uca tutanların fədakarlığı haqqındadır. Uşaqlar illüstrasiyalarla zəngin “Xarıbülbülün nağılı” nı böyük maraq və həvəslə oxuyacaqlar və bu kitab onlara ülvi duyğular, vətənpərvərlik hissi aşılayacaq.




Missis Març xoşbəxtlik haqqında belə nəsihət verir: “Mən istəyirəm ki, qızlarım gözəl, savadlı və mehriban olsunlar. Yaxşı insan tərəfindən sevilmək və seçilmək – qadının həyatında baş verəcək ən gözəl, ən xoş hadisədir”.

Nağılda bütün hadisələr bir anda cərəyan edir. Yüz illərin, bəlkə də, min illərin həqiqətləri bir cümləyə, bəzən də bir ifadəyə sığır. Bu nağılda ədalət, düzgünlük, cəsarət, igidlik təbliğ edilir.







Vaqif Səmədoğlu çoxşaxəli yaradıcılığında uşaqları da unutmamışdır. Oxunaqlı bir dildə yazılmış “Bum-bum” poeması da bu qəbildəndir.

Hadisələr XX yüzilliyin əvvəllərində Budapeştdə baş verir. Həmin vaxt bu şəhər surətlə dəyişirdi. Pal küçəsində yaşayan bir qrup yeniyetmə oğlanın öz qayğıları var – onlar oyun meydançalarını zadəgan uşaqlarının “işğalından” qorumalıdırlar.







Geoloji tədqiqatlarla məşğul olan cənab Corlinq bir gün “Halbreyn” adlı gəminin kapitanı Len Qay ilə tanış olur. Beləliklə, “Halbreyn” gəmisinin Antarktidaya uzun sürən və qeyri-adi macəralarla müşayiət olunan səfəri başlayır.

Milli İncəsənət Muzeyində saxlanılan “Döyüşçünün zirehli hərb geyimi” eksponatın muzeyə ekskursiya edən məktəb şagirdlərindən birinə yaşatdığı qeyri-adi sərgüzəştlərdən və sehrli hadisələrdən bəhs edir.





*Dəyərli dostlar, Yeni il dünyanın ən sevimli bayramıdır. Gəlin görək dünya xalqları Yeni ili hansı ənənələrlə qeyd edir. Bilirik ki, bu əyləncəli bayram haqqında yetərincə məlumatlısınız, elə isə buyurun birlikdə cavablandıraq.*

## Niyə 18 yanvar “Qar adamı günü” hesab edilir?

Cornelius Graetz bu bayramı qeyd etməyi təklif etdi. O, 18 Yanvar tarixini heç də təsadüfən seçməyib. 18 rəqəmi süpürgə tutan qar adamına bənzəyir. Buna görə də, bu gün “Ümumdünya Qardan Adam Gününə çevrildi.

Bu sualın cavabını mən İncəhörüm verdim,
digərlərini isə sizlərə həvalə edirəm.

**Dünyanın ən böyük süni milad ağacı haradadır?**

**Milad ağacının ilk elektrik işıqları nə vaxt yandı?**

**İsveçli Şaxta baba hədiyyələrini hara qoyur?**

***Santa Klausun ünvanı?***



Milad bayramı ənənəsini kim icad etdi?

Uşaqlar Şaxta babadan ən çox nə istəyir?

İlk Yeni il açıqcası hansı ildə və harada yarandı?

Almaniyada yaşayan uşaqlar Yeni il hədiyyələrini harada axtarırlar?

Avstraliyalı Şaxta babanı digərlərindən fərqləndirən geyimi necədir?

Laplandiyada Yeni il ənənələri...

Nə üçün Santa Laplandiyada yaşayır?

İngilislər niyə Yeni il ərəfəsində məhz ön qapını açıq saxlayır?

Yaponiyada hansı çiçək Yeni ilin simvolu hesab olunur?

# Pambıq şahzadənin xoşbəxtliyi



Xoş gördük, dostlar!

Bu mənəm, sizin İncəhörüm. Çoxsaylı məktublarınızı aldım və bu məni çox sevindirir. Müxtəlif mövzu və söhbətləriniz mənə çox maraqlıdır. Tez-tez soruşursunuz, mən nə oxuyuram. Bilirsiniz, mən mütaliəni çox sevirəm. Hər gün yeni-yeni kitabları yarpaq-yarpaq vərəqləyib sizlərlə də bölüşürəm. Gəlin sizə nəfis şəkildə hazırlanmış maraqlı bir kitab haqqında danışım. Onu da deyim ki, bu kitab mənim ən çox bəyəndiklərimdəndir. Buna görə də, oxuyub lap sona çatmışam.

İstərdim ki, bu son sətirləri bərkdən oxuyum ki, siz də eşidəsiniz:

*...Şahzadə bütün qadağalardan, valideynlərinin narahatlığından xəbərsiz idi. O, sevinc içində gülüb oynayırdı, güclü yağan qar isə bacadan qaralmış sifətini yuyurdu. Kral və kraliça başa düşdülər ki, münəccimlərin məsləhətlərini həddən artıq şişirdiblər. Onların övladı həmişəki kimi sağlam idi. Yalnız bir məqam dəyişmişdi: uşaq xoşbəxt idi...*




Dostlar, bu gözəl nağılın da sonuna gəldik. Bəri başdan sizin səsinizi eşidirəm. Bu kitabı necə oxuya bilərsiniz? Çox asan. Kitabxanamıza abunə olaraq bu və digər maraqlı kitablar oxuyun.

***Unutmayın, kitablar, heç solmayacaq bitkilərdir.***

# Kiçik şam ağacının hekayəsi

Əvvəl zamanlarda bir cırtdan yaşayırdı və o, meşənin gözətçisi idi. Cırtdan asayişi qoruyur və heç kimin meşə sakinlərini incitməməsinə imkan vermirdi. Bizim cırtdan onlardan yalnız biri idi. Tək yaşasa da, üzülmürdü, çünki dostu çox idi. Həm də, cırtdanın dediyi kimi, hər gün gəzirdi. Amma əslində bunlar sadə gəzintilər deyildi – cırtdan meşəni yoxlayırdı. Bunlardan birində hekayəmiz baş verdi.

Həmin axşam, növbəti gəzinti zamanı cırtdan kiçik, yalnız bir şam ağacı gördü. Ancaq sizə deməliyəm ki, cırtdan-keşikçilər həmişə meşə bitkiləri və heyvanları haqqında çox şey bilirlər. Ən azı, onların meşəsində olan bitkilər haqqında. Və hər hansı bir keşikçi sağlam bitki və ya heyvanı xəstədən asanlıqla ayırd edə bilər. Beləliklə, bizim keşikçi bu şam ağacından xoşu gəlmədi. Daha doğrusu, ağacın vəziyyəti onu qane etmədi. Gözətçi ona kömək etmək qərarına gəldi. O, hətta çox böyük ağaclara da qulluq etməyi bacarırdı, amma bunu yayda və ya payızda etmək başqa, qışda isə tamam fərqli iş idi. Xoşbəxtlikdən, qışa azuqə toplayan meşə heyvanları gözətçiyə kömək etməyə razı oldular. Birlikdə iksir hazırladılar və tezliklə ağac sağaldı və meşədəki ən böyük ağaclardan birinə çevrildi. Lakin cırtdan və onun dostları bunun nə ilə nəticələnəcəyini bilmirdilər...

Məsələ burasındadır ki, ən yaxın qəsəbənin sakinləri yolkamızı əsas meydançaya qoymaq üçün kəsmək istədilər. Daha bir neçə ağac kəsmək istəsələr də, gözətçi ən çox öz şam ağacı üçün qorxurdu. Nəhayət, gözlənilməz çıxış yolu tapdı: o, hamıya süni yolkalar verməyi təklif etdi, belə ki, bir-birindən heç də fərqlənməyən! Bələdiyyə sədri bu ideyanı bəyənsə də, bundan əmin deyildi.

Yaxşı, dedi, amma yalnız əsl şam kimi görünsələr! Bələdiyyə başçısı lazım olan hər şeyi təmin etdikdən sonra, gözətçi və dostları işə başladı. Hətta qonşu meşənin sakinləri də köməyə gəldilər. Ancaq buna dəyərdi, ağaclar gözətçinin düşündüyündən daha yaxşı alındı. İndi bütün şəhər sakinlərinin Milad ağacı var idi və gözətçi qonşu meşədən gələn cırtdanlara şam ağaclarını və Yeni il bəzəklərini hazırlamağı öyrətdi. Gözətçinin sevimli şam ağacı hələ də meşə sakinlərini sevindirir.



# Hansı Milad ağacı



## Təbii ağac

### Müsbət tərəfləri

- bayram ətri
- ətri immun və tənəffüs sisteminə faydalı təsir göstərir
- iynələrinin qoxusu mikrobları öldürür
- sakitləşdirir, güc verir
- bayramdan sonra istifadə edilə bilər (sabun etmək, vanna qəbul etmək)

### Mənfi tərəfləri

- gözəl ağac seçmək çətindir
- o qədər də gözəl və işıltılı olmur
- iynələr düşür
- gövdəni sulamaq lazımdır və o, otaq dərəcəsində havada göbələk yarada bilər
- allergiyaya səbəb ola bilər
- atmaq problemi yaranır
- hər il almaq lazımdır

## Milad ağacını necə

**Ağacı bir vedrə qum və ya suya qoyun.**



**Vedrənin üzərinə, gövdənin dib hissəsinə pambıqlar düzün.**



# daha yaxşıdır?



## Süni ağac

### Müsbət tərəfləri

- böyük seçim
- tüklü
- iynəsi batmır
- əlavə qulluq tələb etmir
- allergiyaya səbəb olmur
- tez yığılır və sökülür
- döşəmədə zibil yoxdur
- bir neçə il üçün kifayətdir
- iynələr bərabər paylanır

### Mənfi tərəfləri

- təbii şam qoxusu yoxdur
- yüksək qiymət
- ağaca xüsusi saxlama yeri lazımdır
- plastik qoxu ola bilər
- plastik sağlamlıq üçün təhlükəli ola bilər

## bəzəmək olar?

**Ağacın lap yuxarı hissəsinə, başına bir ulduz taxın.**



**Budaqlardan isə müxtəlif rəngdə oyuncaqlar asın.**



**Budaqlardan isə müxtəlif rəngdə fiqurlar asın.**



# SEVİMLİ UZUNQUYRUQ DOSTLAR



Beyni noxuddan bir az böyük olan balaca, sevimli heyvanlar — dələlər ərazidə çox rahat hərəkət edir, həmçinin onların inkişaf etmiş intellekti və fenomenal yaddaşı var. Onlar düşünə və analiz edə bilirlər.

Bildiyiniz kimi dələlər qışa xeyli qoz yığırlar. Onlar qış yuxusuna getmirlər və soyuqda sağ qalmaq üçün bir xeyli qoz yığmalı olurlar. Bəzi qozları torpaqda, bəzilərini isə ağaclarda gizlədirlər. Bu iş çox qüvvə tələb edir. Yaddaşları güclü olduğundan onlar gizlətdikləri qozun yerini iki aydan sonra belə xatırlayırlar. Üç min gizlədilmiş qozun yerini xatırlamaq çox çətindir! Lakin onların içində şıltaqları da olur. Özlərinə əziyyət vermək istəməyən dələlər digər dələnin yığdığı qozu gizlətməsini gözləyir və o ərazidən uzaqlaşdıqda həmin qozu oğurlayırlar.

Lakin dələ onu izləyəni görsə də,   özünü elə aparır ki, guya qozu yerə basdırır. Dələduz dələ boş yerdən qozu axtaran zaman digər dələ qozu yaxşı bir yerə gizlədir. Dəyərli dostlar, bu intellektin göstəricisi deyilmi? Onlar hər şeyi gəmirdiklərindən insanlar onları ziyan vuran hesab edirlər. Lakin  sürəti, ağlı və yaddaşı onları unikal edir.

Onu da qeyd edək ki, dələlər qorxaq və dəcəldirlər. Çox çalışqan, iştahalı, səmimi, cəld, şən və pozitivdirlər.

Dələnin quyruğu onun sükanıdır — hoppanma zamanı uçuşu quyruğu ilə idarə edir. Dələ 20-30 metr hündürlükdən hoppanır və heç bir xəsarət almır. Çünki o quyruğundan paraşüt kimi istifadə edir və uğurla yerə enir.



Onlar Avstraliya və Antarktidadan başqa bütün materiklərdə yaşayır. Dələlər quyruğu istisna olmaqla, ildə iki dəfə xəzini dəyişir. Onlar bir-biri ilə quyruqlarını tərpətməklə danışırlar.

Afrikada yaşayan karlik-dələnin burnunun ucundan tutmuş quyruğunun ucuna qədər uzunluğu cəmi 2,5 santimetr olur. Dəyərli dostlar, o da maraqlıdır ki, dələ yerfındığını sevmir və yeyərsə, xəstələnə bilir.

Əsasən bitki ilə qidalanan dələ bəzən quş yumurtasına tamah salır. Hətta bala dovşanlara hücum da edə bilir.

Dələnin xəzi ağ, boz, kürən, qəhvəyi və qara ola bilər. Dələlər tək yaşamağa üstünlük verirlər. Yalnız güclü şaxtalar zamanı bir neçə dələ soyuqdan qorunmaq məqsədilə bir yuvaya yığışa bilir.

2-8 il yaşayırlar. Dələ əla üzgüçüdür. Üzərkən quyruğunu havada saxlayır. Əgər quyruğu islansa, dələ batar. İslanmış xəz ona ağırlıq edər və suyun dibinə çəkər. Dələnin dal pəncələri yaxşı inkişaf edib. Onun dörd qabaq dişi başqa gəmiricilərdə olduğu kimi durmadan böyüyür. Kor doğulduqları üçün yalnız 6-8 həftədə görməyə başlayır.

# ATLI POLO – KRALLARIN İDMANI



***Sankt Moritz gölünün donmuş buz qatı üzərində təşkil olunan turnir oyunlarından.***

Gəlin sizə olduqca maraqlı qəribə bir idman növü haqqında danışaq.

***– Bu hansı idman növüdür və niyə hər kəsi cəlb edir?***

– Bu, planetin ən gözəl və ən maraqlı idman növüdür. Bu idman növünün əsas personajı isə atlardır. Bu idman dözümlülük və möhkəm ürək-damar sistemi tələb edir.

Poloda dövrlər çukker adlanır. Hər çukker yeddi dəqiqə davam edir və oyunçular, adətən, bir çukker zamanı atları dəyişirlər. Bütöv bir oyun oynamaq üçün hər oyunçuya dörd-beş at lazım olur. Bir komandada dörd oyunçu var, ona görə də bir komandaya 20 at lazım olur.

Deməli, yanvar ayının sonunda poloda iştirak edəcək atlar üç ay əvvəldən, noyabrın sonundan hazırlanmağa başlayır. Atlar dekabr-yanvar aylarında məşq edir. Maraqlı bir faktdır ki, Sankt-Moritzin hündürlüyü dəniz sə-





viyyəsindən 1850 metr yüksəklikdə olduğundan atlar yarışdan iki-üç gün əvvəl yüksəkliyə uyğunlaşmaq üçün Sent-Moritsə gətirilir.

Çukker zamanı atlar dövr edilərək hər üç dəqiqə yarımdan bir dəyişdirilir ki, atların dincəlməsinə imkan verilsin. Qarda sabitlik üçün atların ayaqqabılarında kiçik sünbüllər (qılçıqlar) var.

***– Dünyanın hər yerindən oyunçular, tamaşaçılar və s. niyə Sankt Moritzə axışır?***

– Çünki bu, ən baxımlı və maraq nöqtəsinə çevrilən "Snow Polo" dünya kubokudur və Sankt-Moritzdəki donmuş təbii göldə keçirilir. Bu, dünyada yeganə göldür ki, burada oyun sahəsinin tam ölçüsü ot polosu ilə eynidir.

***– Bu zaman belə bir sual doğa bilər. Qar polosunun ot üzərindəki polodan nə kimi fərqləri var?***

– Ot üzərində komandaların oyunu zamanı qapı dəyişilir. Buz üzərində isə qapı heç vaxt dəyişilmir.

Komandaların hər oyundan sonra hədəfi dəyişdirdiyi ot polosundan fərqli olaraq, qar polosunda məqsəd dəyişmir. Hansı komandanın hansı qolda oynayacağı isə püşkatma ilə müəyyənləşir. Bir sikkə atılır və qalib hansı qapını müdafiə edəcəyini və hansına hücum edəcəyini seçir. Bu çox vacibdir, çünki küləyin istiqaməti topun sürətini və sonda oyunun nəticəsini müəyyənləşdirir.

# Yeni il palitrası

***3 nömrəli UGİM-in foyesində Nərmin Abdullayevanın rəhbərlik etdiyi "Palitra" rəsm studiyasının gənc rəssamlarının "Yeni il palitrası" mövzusunda olan rəngarəng rəsmləri sərgiləndi. Onlarla sizi tanış etmək istəyirik.***



**Dəniz Bəhruzlu 10 yaş**



**Zəhra Nədiyeva 10 yaş**



**Xədicə Budaqlı 11 yaş**

**İnci Qurban 6 yaş**





**Kövsər Qurban 9 yaş**

**Əsma Həsənzadə 9 yaş**





Nuray Məmmədova 9 yaş



Əzizə Bəhruzlu 11 yaş



Xədicə Ramazan 9 yaş



Banu Zeynallı 10 yaş



Sevda Məmmədli 9 yaş



Mədinə Əliyeva 10 yaş

# ABDURRAHMANIN FIRÇASINDAN



Sevimli dostlar, mənəm, sizin İncəhörüm.

Mən maraqlı kitablar oxumaqla yanaşı çox yaxşı dostluq qurmağı da sevirəm. Heç bilirsinizmi mənim nə qədər dostum var? Onların adları saymaqla bitməz. Gəlin mənə çox əziz olan bir dostum haqqında danışım. Kim bilir, bəlkə, siz də onunla dost olmaq istəyərsiniz. O da, mən də buna çox sevinərik. Onun adı **SƏLİMLİ ABDURRAHMANDIR**. Onun 9 yaşı olmasına baxmayaraq çox istedadlı, mehriban və ən əsası isə çalışqan bir dostdur. AbdurRahman 2022-ci ildən rəsmlə məşğul olur. O, 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin rəsm studiyasının üzvüdür. Onun müəllimi isə rəssam Nərmin Abdullayevadır. AbdurRahmanın dostlarından fərqli cəhəti həddindən artıq məsuliyyətli olması və öz üzərində yorulmadan çalışmasıdır. O, verilən tapşırıqları böyük həvəslə yerinə yetirir və rəsm çəkərkən özünü çox xoşbəxt hiss edir. Keçən ildən bu yana rəsm çəkməyində böyük nailiyyətlər əldə edib. 2023-cü ilin dekabr ayında mərkəzimizdə AbdurRahmanın fərdi sərgisi açılıb. O artıq Beynəlxalq və Respublika sərgilərinə hazırlaşır. Sevimli dostlar gəlin hər birimiz ona fəaliyyətində bol uğurlar arzulayaq. Mən də sizlər kimi AbdurRahmanın gələcəkdə gözəl rəssam olacağına inanıram.





Şən peçenyeni tapın
Papaqlı santa peçen-yesini tapın
Neçə ev peçen-yesi var?
Eyni iki peçenyeni tapın
Neçə qız peçen-yesi var?
Qar adamı şəklində beş peçenye tapın




İki bəzək-li maralı tapın
Qırmızı burunlunu tapın
Neçə ma-ral nahar edir?
Ən vacib maralları tapın
Qeyri-adi maralı tapın
Ponini tapın



# DÜŞÜN VƏ TAP

Üfüqi və diaqonal olaraq təkrarlanmamaq üçün 1-dən 7-ə qədər rəqəmləri pətəklərə daxil edin



Qar adamına Milad ağacına gedən yolu tapmağa kömək edin



Qəhrəmanımızın Santaya çatmasına kömək edin



İki dostun görüşməsinə kömək edin




5 heyvan olan şarı tapın
Neçə ulduz var?
Sınıq oyuncaqları tapın


Şaxta baba və Qar qızı tapın
Asılmayan oyuncağı tapın?
Üç eyni oyuncağı tapın
Buzlaq oyuncağı tapın?


Gizlənən üç pinqvini tapın
Ən kiçik qar adamı hansıdır?
İstilənən qar ada-mını tapın


Sevən qar adamlarını tapın
Dəbli qar adamı hansıdır?
Şapkalı qar adamlarını sayın